# MÜBARİZ KEŞİKDƏ

9 may 2019-cu il
Cümə axşamı
№ 17 (3432)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# BAKIDA V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU KEÇİRİLİB

## *AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FORUMUN AÇILIŞINDA İŞTİRAK EDİB*

Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilib. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak ediblər.

Dövlətimizin başçısı V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söyləyib.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, 8 il əvvəl ilk forum təşkil ediləndə onun bu qədər geniş beynəlxalq dəstək qazanacağını təsəvvür edə bilməzdik.

Foruma göstərilən geniş beynəlxalq dəstək bizi ruhlandırır. Bu gün Forumun həmtəşkilatçıları arasında dünyanın aparıcı beynəlxalq təşkilatları var və birgə səylərimiz mədəniyyətlərarası dialoqun təşviqi işinə töhfə verir.

Dövlətimizin başçısı qeyd edib ki, son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq tədbirlərə evsahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq.



Ötən il müstəqilliyimizin 27-ci ildönümünü qeyd etdik. Bu müddət ərzində Azərbaycan müasir infrastruktura və gələcəklə bağlı aydın baxışa malik, inkişaf edən ölkəyə çevrilib. Uzun illər üzləşdiyimiz əsas problemlərdən biri Ermənistanın ölkəmizin ərazisini işğal etməsidir. İyirmi beş ildən artıqdır ki, Ermənistan bizim tarixi torpağımız olan Dağlıq Qarabağı və Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Bu, beynəlxalq hüququn kobud pozulmasıdır. Bizim xalqa qarşı etnik təmizləmə aparılıb, Ermənistanın təcavüzü və işğalı nəticəsində bir milyondan artıq insan evlərindən didərgin salınıb. ATƏT işğal edilmiş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərib və həmin hesabatlar tarixi irsimizin və dini abidələrimizin dağıdıldığını aydın şəkildə göstərir.

Bu böyük problem və humanitar fəlakətə baxmayaraq, Azərbaycan müasir ölkəyə çevrilə bilib... Son 15 ildə iqtisadiyyatımız ən sürətlə inkişaf edən iqtisadiyyatlar sırasında olub. Biz mühüm islahatlar həyata keçirmişik ki, bu da ölkədə biznes mühitinin yaxşılaşdırılması və sərmayə cəlb etmək imkanı yaradıb. Dünya Bankının sonuncu "Doing Business" hesabatına görə, Azərbaycan dünyada 25-ci yerdə qərarlaşıb. Ölkədə xarici sərmayələr üçün münbit biznes mühiti mövcuddur.

Yoxsulluq, işsizlik, sosial bərabərsizlik və savadsızlıq radikalizmin və ekstremizmin mənbələrindəndir. Azərbaycan beynəlxalq terrorizm, radikalizm və ekstremizmlə mübarizədə çox fəal tərəfdaşdır. Bununla yanaşı, biz dünyada İslam sivilizasiyasının dəyərlərini təbliğ edirik. Biz dünyanın müxtəlif yerlərində öz mədəniyyətimizi və digər tərəfdaş müsəlman dövlətlərinin mədəniyyətini əks etdirən çoxsaylı sərgi və tədbirlər keçiririk...

# PREZİDENT İLHAM ƏLİYEVİN QOBUSTAN RAYONUNA SƏFƏRİ

Mayın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan rayonuna səfərə gəliblər.

Dövlətimizin başçısı və birinci xanım ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov rayonda görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verib.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 7-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qobustan filialının açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müxtəlif əsrlərdə toxunan Salyan, Ağsu, İsmayıllı, Hacıqabul, Ağdaş, Göyçay, Şamaxı, Oğuz, Qəbələ, Qobustan xalçalarına baxıblar.

Prezident İlham Əliyev müəssisədə toxunan ilk xalçanı kəsib.

Dövlətimizin başçısı və birinci xanım Mehriban Əlieva Qobustan Rayon Mərkəzi Xəstəxanasının, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin və Qobustan-Poladlı avtomobil yolunun açılışlarında da iştirak ediblər.

# RAMAZAN AYININ BAŞLANMASI MÜNASİBƏTİLƏ TƏBRİK

Əziz həmvətənlər!

Sizi Ramazan ayının – orucluq və mənəvi yenilənmə, düşünmək və dua etmək, bağışlamaq və mərhəmət ayının başlanması münasibətilə təbrik edirəm. Bu müqəddəs ay bütün dünyada milyonlarla müsəlman üçün mənəvi kamilləşmə, nəcib və xeyirxah işlər dövrüdür.

Azərbaycanda çoxəsrlik tarixi olan mənəvi ənənələrə hörmətlə yanaşılır. Bu ənənələrin əxlaqi və etik əsasları dəyişməz qalır. Çünki yaxınlarına qayğı, xeyirxahlıq və mərhəmət bütün dövrlərdə yüksək qiymətləndirilib.

Əminəm ki, Ramazan ayı birlik və həmrəylik, hörmət və qarşılıqlı anlaşma dövrü olacaq. Qoy Ulu Tanrı bu müqəddəs günlərdə sizin bütün dualarınızı eşitsin və qəbul etsin. Sizə sülh, xoş günlər, səadət və rifah arzulayıram.

***Mehriban Əliyeva,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

**Dövlətimizin başçısı mayın 1-də Ümumdünya Yəhudi Konqresinin, Avrasiya Yəhudi Konqresinin və Avropa Yəhudilərinin Bakı dini icmasının rəhbərlərinin daxil olduğu nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Mayın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanın 126-cı İmperatoru olaraq Taxta çıxması münasibətilə Əlahəzrət Naruhitoya təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri mayın 2-də Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqonini qəbul edib.***

❖❖❖❖❖

**Mayın 2-də Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.**

❖❖❖❖❖

***Mayın 3-də dövlətimizin başçısı Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri mayın 3-də I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri mayın 6-da Heydər Əliyev Fondu əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Mayın 6-da Azərbaycan Prezidenti İlham Əliyev Şeremetyevo aeroportunda təyyarənin qəza enişi nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə başsağlığı teleqramı göndərib.**

❖❖❖❖❖

***Mayın 6-da dövlətimizin başçısı "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorovu qəbul edib.***

❖❖❖❖❖

**Mayın 7-də dövlətimizin başçısı Azərbaycan Respublikasında müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

# BİZ ONA BORCLUYUQ

**Biz Heydər Əliyevə borcluyuq. Cəsarətimə və hər kəsin bildiyi bu Həqiqətə sığınıb fikrimizi daha da qətiləşdirmək istəyirik. Ona görə borcluyuq ki, XX əsrdə yox olmaq təhlükəsi ilə üzləşən dövlətə, başsız qalan xalqa XXI əsri görməyi nəsib etdi. Kremlin nəfəs kəsən, səs udan divarlarından sıyrılan, "Mən azərbaycanlıyam, mən o torpağın oğluyam" nidasını hər oğul hayqırmaq gücündə, qüdrətində deyildi. O, sovetlər ölkəsində "hər kəs bərabərdir" şüarının alt qatındakı gizlinləri yaxşı bilirdi. Və bilirdi ki, bu bərabərlik əgər Kremldə pozulurdusa, ona milli kimliyinə görə haqsız hücumlar olurdusa, deməli, sadə xalqı çeynəmək, qısnamaq yuxarıların əlində çətin deyildi.**

***SSRİ-nin çöküşü, əslində, Azərbaycandakı duruma elə də ciddi təsir etməyəcəkdi. Çünki iqtisadi dayaqları yetərincə möhkəm olan, zavod və fabriklərin, emal müəssisələrinin var gücü ilə işləməsi müstəqilliyinə qovuşan ölkənin sabahının daha qüdrətli olacağından xəbər verirdi. Bütün bunlar isə məhz Onun sayəsində mümkün oldu. Bu tarixdir, bu gerçəklikdir. Lakin sonradan Moskvadan idarə olunan siyasi dairələrin Heydər Əliyev yadigarlarına hücümları, Azərbaycanda süni şəkildə yaradılan çaxnaşmalar bizi olum və ölüm mücadiləsi ilə üzbəüz qoydu.***

***Çökən iqtisadiyyat, bir parça çörəyə möhtac olan xalq, bu gündən sabahı görünməyən məmləkətin əldən gedən dövlətçiliyi...***

***Amma yenə də O...***

***1990-cı il hadisələrindən sonra Moskvadakı nümayəndəliyimizə gəlişini əks etdirən kadrları yəqin ki, hər kəs görüb. Gedəcəyi yerdə öldürüləcəyini və ya sağ çıxacağını bilməyə-bilməyə o addımı atmaq doğulduğu torpağa, canından əziz bildiyi xalqa sevgi, cəsarət və qətiyyət deyildimi?***

***Aciz duruma düşəndə, təklənəndə, gücü yetməyəndə uşaq valideyninə, doğmasına sığınar. Bu Xalq da, bu Vətən də dar günündə Ona sığındı, ondan imdad dilədi. Bu xalqdan savayı onun kimi vardı ki? Gümanımız yüz yerə getsə də İnamımız bizi Ona doğru apardı. "Heydər baba, xalqı bu bəladan qurtar",-dedik. Bir qartal misalı qüdrətli qanadları ilə səni, məni, bizi və Vətənimiz Azərbaycanı qucaqladı Ulu Öndər...***

***Gözünün nuru, qolunun gücü, dizinin təpəri, yenilməz inadı idi bu torpaq. O, Vətəninin daha da qüdrətlənməsi üçün əlindən gələni etdi, ömrünü xalqına bağışladı...***

***Tarixi yenidən yazmaq fikrimiz olmasa da ağ varaqlara ürəyimizi boşaltmaq istədik. Yenə Onu xatırladıq, yenə Onu. Və nə yaxşı ki, qəlbimizdə, ruhumuzda, yaddaşımızda Heydər Əliyev adlı yanar məşəl, əbədiyaşar bir lider var...***

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov 2019-cu il may ayının 25-də Bərdə Rayon Polis Şöbəsində Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Azərbaycan Respublikasının Daxili İşlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov 2019-cu il may ayının 18-də Şəki Şəhər Rayon Polis Şöbəsində Şəki, Balakən, Qax, Oğuz, Zaqatala, Qəbələ şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

**Kütləvi informasiya vasitələrində öncədən verilmiş elanlara uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov mayın 3-ü və 7-də DİN-in Daxili Qoşunlarının Quba və Hacıqabul rayonlarında yerləşən hərbi hissələrində respublikanın Şimal, Aran və Cənub zonalarının ərazi polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla bağlı sıra baxışları keçirib.**

Aidiyyatı baş idarə və Şəhər, Rayon Polis şöbələri rəislərinin də iştirak etdikləri sıra baxışlarında həmin bölgələrdə yaşayan, Post-Patrul Xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək istəyən ümumilikdə 393 nəfər iştirak edib. Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi



və dünyagörüşü ilə maraqlanıb. Ümumən, iddiaçıların arasından daha hazırlıqlı olan 200 nəfər seçilərək onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün müvafiq tapşırıqlar verilib.

Namizədlər qarşısında çıxış edən nazir vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, ölkəmizdəki dinamik inkişafın təməlində xalq-iqtidar birliyinin, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən hüquq-mühafizə siyasətinin, ictimai-siyasi sabitliyin dayandığını, bu istiqamətdə qazanılmış müsbət nəticələrin xalqımız tərəfindən hər zaman yüksək qiymətləndirildiyini xatırladıb.

Nazir R.Usubov xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək şərəfli polis adını uca tutmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, göstərilən etimadı doğrultmalarını, öz üzərilərində səylə çalışmalarını tövsiyə edib, gələcək xidməti fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Vətəndaşların nəzərinə bir daha çatdırırıq ki, polis orqanlarında vakant olan Post-Patrul Xidməti vəzifələrində xidmətə qəbulla bağlı növbəti belə tədbir cari il may ayının 13-də DİN-in Daxili Qoşunlarının Bərdə rayonunda yerləşən hərbi hissəsində keçiriləcək.

*8 may 2019-cu il*



**Mayın 2-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov ölkəmizdə işgüzar səfərdə olan Monteneqronun Daxili İşlər naziri Mevludin Nuhodjiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları salamlayan nazir dövlət başçılarımızın, habelə yüksək səviyyəli nümayəndə heyətlərinin, eləcə də vətəndaşlarımızın qarşılıqlı səfər və ziyarətlərinin Azərbaycanla Monteneqro arasında olan sıx əməkdaşlığın və qarşılıqlı etimadın daha da genişləndirilməsinə təkan verdiyini məmnunluqla qeyd edib.

Sonra nazir DİN-in funksional vəzifələri və fəaliyyət istiqamətləri, mövcud kriminogen durum, daxili işlər orqanlarında həyata keçirilən islahatlar, insan hüquqlarının qorunması, vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində görülən işlər barədə həmkarına qısa məlumat verib.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Monteneqronun Daxili İşlər naziri Mevludin Nuhodjiç dövlətlərimiz arasındakı əlaqələrin son illər bütün sahələrdə inkişaf etməsindən, Azərbaycanda yaradılmış sabitlik və əmin-amanlıqdan, respublikamızın, onun paytaxtının dünyanın ən təhlükəsiz dövlətlərindən və şəhərlərindən biri olmasından, burada həyata keçirilən geniş quruculuq işlərindən məmnunluğunu ifadə edib, yaxın dost və tərəfdaş saydıqları Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəklərini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

*2 may 2019-cu il*

# İNSAN HÜQUQ VƏ AZADLIQLARININ TƏMİNİ

## POLİSİN ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİNDƏNDİR

**Respublika Daxili İşlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov mayın 6-da Avropa Şurası Katibliyinin Siyasi məsələlər direktoratlığının rəhbəri Aleksandr Qesselin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



Qonağı salamlayan nazir müavini qarşıda duran ən mühüm vəzifələrdən birinin insan hüquq və azadlıqlarının müdafiəsi, ölkəmizin 2001-ci ildə Avropa Şurasının üzvü olduğu ilk gündən etibarən, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsinin Daxili İşlər Nazirliyinin fəaliyyətinin də əsas istiqamətlərindən olduğunu vurğulayıb. Bildirilib ki, bu gün Azərbaycan Polisi demokratik prinsiplərə cavab verən qanunlar əsasında fəaliyyət göstərir, eyni zamanda, Azərbaycan Respublikası insan hüquqları sahəsində əsas beynəlxalq sənədlərlə yanaşı, Avropa Şurasının bir çox konvensiyalarına qoşulub ki, bu da onun Avropa hüquq məkanına inteqrasiyası üçün əsas yaradıb.

Nazir müavini qonaqların nəzərinə çatdırıb ki, şəxsi heyət tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının pozulması barədə müraciətlər operativ və obyektiv şəkildə araşdırılır, müvafiq tədbirlər görülür.

Daxili işlər orqanlarının Müvəqqəti Saxlama yerlərinin müasir standartlara uyğun yenidən qurulması yönündə də zəruri tədbirlərin görüldüyü, 2010-cu ildən başlayaraq, paytaxtda və regionlarda 41 Müvəqqəti Saxlama Yerinin inşa edildiyi, mövcud olanlarda isə yenidənqurma və təmir işlərinin aparıldığı, videonəzarət və təhlükəsizlik avadanlıqları ilə təmin olunduğu, dövlət və qeyri-hökumət təşkilatları müşahidəçilərinin maneəsiz şəkildə monitorinq keçirmələrinə şərait yaradıldığı diqqətə çatdırılıb. DİN-in "102-Zəng Mərkəzi" Xidmətinin və "Təhlükəsiz Şəhər" sistemlərinin fəaliyyəti də məhz insan hüquq və azadlıqlarının qorunması kimi ali prinsipə xidmət etdiyi bildirilib.

Cənab Aleksandr Qessel səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edib, Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlərdən məmnunluğunu ifadə edib, vacib tərəfdaş saydıqları Daxili İşlər Nazirliyi ilə qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da davam etdirilməsində maraqlı olduqlarını vurğulayıb.

İşgüzarlıq şəraitində keçən görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub, Avropa Şurası Katibliyinin Siyasi məsələlər direktoratlığının rəhbərini maraqlandıran suallar cavablandırılıb.

***O.Mansurzadə,***
***polis polkovniki***

# ULU ÖNDƏRİN DÖVLƏTÇİLİK İRSİ ÖYRƏNİLİR

**DİN-in Polis Akademiyasında "Ulu öndər Heydər Əliyevin dövlətçilik irsində gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması" mövzusunda elmi-praktiki konfrans keçirilib.**



Əvvəlcə ümummilli lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Sonra ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.



Konfransda çıxış edən Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsilin, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi məsələlərinin xüsusi yer tutduğunu deyib. Qeyd olunub ki, ulu öndər bu işə strateji sahə kimi baxıb, Vətənin, xalqın tərəqqisində rolunu yüksək qiymətləndirib. Bildirilib ki, ulu öndər DİO-nun fəaliyyətini diqqət mərkəzində saxlayaraq onun yüksək ixtisaslı kadrlarla təminatına, ali hüquq təhsili olan peşəkarların bu orqanlarda yer tutmasına diqqət və qayğı göstərib, Akademiyanın da bugünkü səviyyəyə çatmasında bu müdrik, uzaqgörən şəxsiyyətin əvəzsiz xidmətləri vardır.

Tədbirdə Dövlət İdarəçilik Akademiyası Hüquq kafedrasının müdiri F.Nağıyev, DTX-in Heydər Əliyev adına Akademiyasının rəisi, general-leytenant Ə.Şəfiyev, DİN Daxili Qoşunları Ali Hərbi Məktəbinin rəisi, general-mayor İ.Məmmədov, Fövqəladə Hallar Nazirliyi Akademiyasının rəisi, general-mayor B.Salayev, Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi Q.Novruzov və başqaları çıxış ediblər.

***Teymur Əlizadə,***
***Üzeyir Muradov***

# ƏSRİN YAŞIDI



**Müharibə hələ də davam edirdi. Artıq Sovet qoşunları üstünlüyü ələ almışdılar. Alman faşistləri itkilər verə-verə geri çəkilirdi. Döyüş meydanlarında qan yenə də su kimi axıdılırdı. Hər gün onlarla "qara kağız" vaxtsız qonaq kimi evlərin qapısını döyürdü. Hamilə top və tüfənglərin lüləsindən neçə-neçə arzusu kam döyüşçünün ölü canları doğulurdu...**

Arxa cəbhədə çalışan insanlar bu ağrı-acılara baxmayaraq, ön cəbhəyə kömək göstərir, qələbəni təmin etmək üçün gecə-gündüz çalışırdılar. O zamanlar arxa da bir cəbhə idi. Bütün işlərin ağırlığı, çətinliyi qadınların, şikəst və qocaların, uşaqların üzərinə düşmüşdü.

Müharibə başlayanda Salyanın Yuxarı Xalac kəndinin yetirməsi Davidin 14 yaşı vardı. Arxada olsa da, o da müharibəni yaşayırdı. O da hamı kimi alatorandan evdən çıxır, kolxozda işləyənlərə kömək edir, gecənin bir aləmində yorğun-arğın evə qayıdardı. Bəzən evə qayıtmadığı günlər də olurdu. David bütün məhrumiyyətlərə sinə gərir, dözürdü.

İllər heç nəyi gözləmədən bir-birini sınağa çəkə-çəkə ötür, o da həmyaşıdları kimi yaşa dolurdu.

1944-cü il. Artıq ön cəbhəyə getməyin vaxtı gəlmişdi. 18 yaşlı David Baxşiyev günləri sayırdı. Salyan Rayon Hərbi Komissarlığından çağırış vərəqəsi alanda içində bir duyğu hayqırdı. Qisas hissi idi onun adı...

Qələbə sorağını elə xidmət etdiyi hərbi hissədə eşitdi. Nəhayət, o qanlı-qadalı illərə son qoyulmuşdu.

1945-ci ildə Davidin xidmət yeri dəyişdirildi. 1949-cu ilə kimi əvvəlcə Bakı şəhərində, sonra Qusarda hərbi xidmətini davam etdirdi. Daha sonra zabitlər məktəbini bitirdi. 1952-ci ildə Naxçıvan Muxtar Respublikasına göndərildi. Orada Quru Qoşunların bölük komandiri vəzifəsinə təyin olundu.

Hara göndərilirdisə, göstərilən etimadı, etibarı doğruldurdu. Bu dəfə o, siyasi məktəbdə təhsil almaq üçün Gürcüstanın Qori şəhərinə göndərildi. Bir illik təhsildən sonra Batumidə rota komandirinin müavini kimi işə başladı. Sonra yenidən Naxçıvana göndərildi.

1957-ci ildə D.Baxşiyev DİN-də xidmətə qəbul olundu. 1961-ci ildə Şahbuz RDİŞ-ə göndərilən baş leytenant David Baxşiyev sahə müvəkkili kimi fəaliyyətini davam etdirdi. O, işləyə-işləyə təhsil almağı da unutmadı...

Artıq milis mayoru olan David Baxşiyev Naxçıvan DİN-də müxtəlif vəzifələrdə, 1980-cı ildən təqaüdə çıxana qədər isə Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışıb. İşlədiyi müddətdə milisin şərəfini həmişə qorudu, adına ləkə düşməsinə imkan verməyib.

Təqaüd illərində ictimai işlərini davam etdirib. Yerli sakinlər arasında, məktəblərdə şagirdlərlə görüşlərdə milis işçılərinin icimai asayişin qorunmasında rastlaşdığı çətinliklərdən, uğurlarından söz açıb, gənclərdə bu peşəyə olan marağı artırıb.

Ağsaqqal veteranla görüşəndə polis mundirini əynimizdə görən kimi elə bil gözlərinə işıq gəldi, üzü güldü. Dedi ki, xoşbəxtsiniz. Xoşbəxtsiniz ki, müstəqil ölkədə xidmət edirsiniz.

Bir anlığa gözləri yol çəkdi. Kim bilir, bəlkə də xəyalı o qanlı-qadalı illərə getdi.

Yeniyetməlik, gənclik illərini xatırladı. Danışdıqca, görüşünə gələndə kənddə eşitdiyim onun ünvanına deyilən xoş sözləri



xatırladıq. "Çox yaxşı milis işçisi olub. Uzaqlarda işləsə də, hər kəndə gələndə qohum-əqrabaya, imkansız ailələrə baş çəkib, onların qayğıları ilə maraqlanıb, kömək əlini əsirgəməyib. Mərd, xeyirxah insandır. İndinin özündə də çətinliyə düşənlər ona üz tutur, məsləhətini alırlar".

David Baxşiyevin xidmətləri diqqətdən kənar qalmayıb. Bir çox medallarla, döş nişanlarıyla təltif olunub.

Müdrik, qayğıkeş ailə başçısıdır. Hələ Naxçıvanda xidmət edərkən Asiyə xanımla ailə qurub. Çətin, xoş günləri bir yerdə keçib. Üçü oğlan, biri qız olmaqla bu dünyaya 4 övlad bəxş ediblər. Övladlarına ali təhsil veriblər. Bir neçə il öncə vəfalı ömür-gün yoldaşı dünyasını dəyişib.

David Baxşiyev, çox istəyirmiş ki, yolunu övladlarından biri davam etdirsin. Təkcə bu arzusu ürəyində qalıb. Əvəzində onu 11 nəvə, bir o qədər də nəticə ilə sevindiriblər...

***Ayrılmaq istəmirdi. İllər dostlarının, həyat sirdaşlarının üzərindən çoxdan çalım-çarpaz xətt çəkib. Zarafat deyil, belə çətin ömrü 93 il yaşamaq...***

***Toğrul Nəsirli,***
***Aytən Tahirova***

# MİLLİ MƏCLİSDƏ İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ MİLLİ ƏLAQƏLƏNDİRİCİNİN İLLİK MƏLUMATI DİNLƏNİLİB

**Milli Məclisin mayın 3-də keçirilən plenar iclasında insan alverinə qarşı mübarizə üzrə milli əlaqələndiricinin illik məlumatı dinlənilib.**

**Məlumatı milli əlaqələndirici, Daxili İşlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov təqdim edib.**



Bildirilib ki, transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərindən olan insan alveri dünyada, eləcə də hər bir ölkədə sabitliyin əsaslarına, qanunun aliliyinə təhdid yaradan və insan hüquqlarını pozan əməllərdəndir. Eyni zamanda, bu sahədə fəaliyyət göstərən kriminal qrupların yüksək təşkilatlanma səviyyəsi və miqyasının sürətlə genişlənməsi baxımından XXI əsrin kəskin problemlərindən olaraq daim dünya birliyinin və nüfuzlu beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatının 2019-cu ildə yaydığı növbəti qlobal hesabatda dünyanın əksər ölkələrində insan alveri cinayətlərinin sayının artması, bu əməllərin cəzasızlıq mühitinin hökm sürdüyü silahlı münaqişə zonalarında daha geniş yayılması, onun qurbanları arasında qadınların və azyaşlı qızların xüsusi çəkisinin yüksək – təxminən 70 faiz həddində olması qeyd edilir. Aşkarlanmış cinayətlərin isə 59 faizini cinsi istismar, 34 faizini məcburi əmək faktlarının təşkil etməsi, ayrı-ayrı dövlətlərdə insan alverinin qanunsuz transplantasiya, cinayətkar fəaliyyətə cəlbetmə və övladlığa götürmə yolu ilə törədilməsi kimi növləri xüsusi vurğulanır. Bununla belə, insan alverinin qarşısının alınması, qurbanların hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlər bir an belə səngiməyib. Hesabatda təkcə ötən il 17 min 880 insan alveri cinayətinin, 100 mindən çox qurbanın müəyyən edilməsi, təqsirli şəxslər barəsində məhkəmələr tərəfindən 7045 ittiham hökmünün çıxarılması əksini tapıb.

Qeyd olunub ki, insan alverinə qarşı mübarizənin kompleks və sistemli aparıldığı ölkələrdən olan Azərbaycan Respublikasında da sayca üçüncü Milli Fəaliyyət Planı ilə qarşıya qoyulmuş vəzifələr aidiyyatı dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla birgə ardıcıllıqla və tam yerinə yetirilib. Bu sahədə qlobal çağırışlara cavab verən qanunvericilik bazasının formalaşdırılması üzrə fəaliyyət çərçivəsində "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununda insan alverinin qurbanı olmuş şəxslərin ödənişsiz psixoloji yardım almaq hüququ, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunda isə yeniyetmələrin ictimai mənəviyyata, milli və əxlaqi dəyərlərə zidd materiallardan müdafiəsi mexanizmləri təsbit olunub. Dövlət başçısının "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci ildə imzaladığı Fərmana əsasən "DOST" mərkəzlərində göstərilən sosial xidmətlər sırasında insan alveri qurbanlarının reabilitasiyasının təşkil edilməsi ilə bağlı tədbirlər də nəzərdə tutulub.

Azərbaycan Respublikasının Nazirlər Kabineti, Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2018-2019-cu illər üçün Baş Kollektiv Saziş imzalanıb və həmin qurumların birgə qərarı ilə təsdiq edilib. Həmin sənəddə uşaq əməyinin, məcburi əməyin və insan alverinin aradan qaldırılması, əmək miqrasiyasını tənzimləyən dövlət sosial proqramlarının dəstəklənməsi və birgə monitorinqlərin təşkil edilməsi barədə normalar yer alıb. İnsan alverinin profilaktikası üzrə tədbirlərin əsasını təşkil edən ayrı-ayrı sosial təbəqələr üzrə maarifləndirmə və təbliğat işi də əvvəlki illərdə olduğu kimi sistemli xarakter daşıyıb. Daxili İşlər, Təhsil, Səhiyyə, Gənclər və İdman nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə orta ümumtəhsil məktəblərinin 9-11-ci siniflərinin 85 minə yaxın şagirdi və onların valideynləri ilə 2000-dən çox görüş keçirilərək uşaqların insan alverindən müdafiəsi məsələləri geniş müzakirə olunub. Respublikanın 46 şəhər və rayonunu əhatə edən bu tədbirlərdə hüquq-mühafizə orqanlarının əməkdaşları, kütləvi informasiya vasitələrinin, yerli icra hakimiyyəti strukturlarının, tibb, sosial müdafiə qurumlarının, beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələri yaxından iştirak edib, sosial çarxlar nümayiş etdirilib. Analoji tədbirlər, həmçinin bir sıra universitetlərin, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün də təşkil olunub. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin dəstəyi ilə "ASAN xidmət" mərkəzlərində vətəndaşlara maarifləndirici bukletlər paylanılıb və bu qurumun Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən 195 tikinti obyektində əmək münasibətlərinin leqallaşdırılması ilə əlaqədar izahedici iş aparılıb. Əmək müqavilələrinin bağlanmasının təşviqi və bu sahədə ölkə əhalisinin zəruri informasiya ilə təmin edilməsi məqsədilə Əmək Münasibətlərinin Tənzimlənməsi üzrə Vahid İnternet Portalı yaradılaraq 2018-ci ildə istifadəyə verilib.

Maarifləndirmə tədbirlərində paytaxtın, həmçinin respublikanın şəhər və rayonlarının icra hakimiyyətləri yaxından iştirak ediblər. Ölkəyə gələn və ölkədən gedən şəxslərin insan alveri təhlükəsi barədə məlumatlandırılması üzrə işlər də davamlı olub, gömrük keçid və sərhəd-nəzarət məntəqələrində minlərlə sərnişinə maarifləndirici vəsait paylanıb. Hüquq-mühafizə orqanları əməkdaşlarının peşəkar hazırlığı işinə yeni meyarlarla yanaşılmasının, təlim-təhsil sisteminin səmərəliliyinin artırılmasının zəruriliyi nəzərə alınaraq, insan alverinə qarşı mübarizəni və sosial reabilitasiyanı həyata keçirən dövlət orqanlarının və vətəndaş cəmiyyətinin nümayəndələri üçün tədris kursları təşkil olunub. Xüsusi polis qurumunun əməkdaşları xarici dövlətlərdə və ölkəmizdə keçirilmiş 51 konfrans, seminar və təlimlərdə iştirak edib, beynəlxalq treninqlərə təlimçi qismində cəlb olunublar. Hesabat dövründə beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın gücləndirilməsi üzrə mühüm vəzifələrin icrası da səmərəli olub.

Bildirilib ki, insan alverinə qarşı mübarizədə əldə olunmuş nəticələr, əməkdaşlığın perspektivləri, birgə layihələrin əhatə dairəsinin genişləndirilməsi ötən il ABŞ Dövlət Departamentinin, bu ölkənin və bir sıra digər dövlətlərin Azərbaycandakı səfirliklərinin, Beynəlxalq Miqrasiya Təşkilatının, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin təmsilçiləri ilə görüşlərdə ətraflı müzakirə edilib. Mənşə və təyinat ölkələrindən olan Türkiyə, Özbəkistan, İran və Birləşmiş Ərəb Əmirliklərinin aidiyyatı dövlət orqanlarının nümayəndələri ilə görüşlər zamanı məlumat mübadiləsinin intensivliyinin artırılması, axtarışa elan edilmiş təqsirləndirilən şəxslərin ekstradisiyası və başqa vacib məsələlərlə bağlı razılıq əldə olunub.

Daxili İşlər Nazirliyinin 40-a yaxın ölkənin aidiyyatı dövlət strukturları ilə imzaladığı 100-dən çox müqavilə insan alverinin qurbanı olmuş Azərbaycan vətəndaşlarının digər dövlətlərdə yerinin operativ müəyyən edilməsində, bu cinayətləri törədənlər haqqında məlumatların toplanılmasında, birgə tədbirlərin keçirilməsində real nəticələr verməkdədir. Bununla yanaşı, bir sıra mötəbər beynəlxalq qurumlar, o cümlədən BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq, Beynəlxalq Miqrasiya və digər təşkilatlarla həyata keçirilən birgə işlərin böyük bir hissəsi bilavasitə insan alveri probleminə və onun həlli yollarına həsr olunub. Məcburi əməyin qarşısının alınması, bu hüquqazidd əməllərə şərait yaradan halların aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələr də planlı şəkildə yerinə yetirilib.

Diqqətə çatdırılıb ki, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən aparılan yoxlamalarla 79 tikinti obyektində 946 nəfərin əmək və ya xidməti müqavilə olmadan işləməsi aşkar edilib. Yol verilmiş pozuntularla bağlı 6 təşkilat barədə Respublika Prokurorluğu tərəfindən cinayət işləri başlanılıb, 35-i haqqında 527 min manat məbləğində inzibati cərimə, 27-si barədə 468 min manat vergi sanksiyası tətbiq olunub.

Ölkədə olma və yaşama qaydalarını pozan 19 min 210 əcnəbinin inzibati məsuliyyətə cəlb edilməsi və onlardan 3740 nəfərinin respublikanın hüdudlarından çıxarılması da məcburi əməyin profilaktikasında mühüm əhəmiyyət kəsb edib. Uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə keçirilmiş tədbirlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq müəyyən olunub. Aparılmış yoxlamalarla həmin uşaqların insan alverinin və ya məcburi əməyin qurbanı olması təsdiqlənməyib. Lakin bəzi mövcud problemlərin aradan qaldırılması, xüsusən uşaqlara qayğı və yardımın göstərilməsinin zəruriliyi baxımından yerli icra hakimiyyətləri yanında komissiyalara, qəyyumluq və himayə orqanlarına 760 material göndərilib, övladlarının təlim-tərbiyəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 207 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb.

Bildirilib ki, keçirilmiş monitorinqlər nəticəsində baxımsız qalmış 75 yetkinlik yaşına çatmayana və onların valideynlərinə ixtisaslı hüquqi və psixoloji yardım göstərilib, həmçinin övladlığa götürülmüş, qəyyumluğa və himayəyə verilmiş 143 uşağın hər biri sosial yardımlarla əhatə olunub. İnsan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə verilməsi sahəsində fəaliyyət, əvvəlki illərdə olduğu kimi hesabat dövründə də məqsədyönlü xarakter daşıyıb. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 144 insan alveri, 4 məcburi əmək, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 35 cinayət qeydə alınıb, 28 nəfərdən ibarət 13 cinayətkar qrup zərərsizləşdirilib.

Vilayət Eyvazov deyib ki, Beynəlxalq əmək Təşkilatının hesablamalarına əsasən, bu gün dünyada müasir köləliyin qurbanı olan 40,3 milyon insan var. Onlardan 16 milyonu ev qulluğu, tikinti sektoru, kənd təsərrüfatı sahələrində məcburi əməyə, 4,8 milyonu cinsi istismara məruz qalanlardır. Hər dördüncü qurban isə azyaşlı oğlan və qızlardır. Qlobal problemlərdən birinə çevrilməsi nəzərə alınaraq, əksər ölkələrdə insan alverinin aradan qaldırılması istiqamətində səylərin artırılmasına, müvafiq hüquqazidd əməllərə görə cəza tədbirlərinin sərtləşdirilməsinə, qurbanların qayğı ilə əhatə olunmasına yönəlmiş kompleks addımlar atılır.

Azərbaycanda da dövlətimizin güclü siyasi iradəsi sayəsində insan alverinə qarşı mübarizədə dünya standartlarına uyğun institusional islahatlar aparılıb, zəruri təşkilati və praktiki tədbirlər həyata keçirilib.

Ötən il icrası başa çatmış sayca üçüncü Milli Fəaliyyət Planının əhatə etdiyi 2014-2018-ci illərdə ölkə iqtisadiyyatının inkişaf templərinin qorunub saxlanılması, əhalinin məşğulluğunun artırılması və həyat səviyyəsinin daha da yaxşılaşması sahəsində ortaya qoyulmuş böyük bir fəaliyyət insan alveri probleminin həllində də əhəmiyyətli nəticələri şərtləndirib. Bu dövr insan alveri ilə mübarizə standartlarının yüksəlməsi ilə səciyyəvidir. O cümlədən qarşıda duran məqsədlərə nail olunmasında müasir informasiya texnologiyalarının imkanlarından geniş istifadə edilib, Planın iştirakçısı olan dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının peşəkarlığı, qurbanlara dövlət dəstəyi artıb, infrastruktur və texniki təminat xeyli güclənib. İcra olunduğu müddətdə insan alverinə qarşı mübarizə məsələlərini tənzimləyən 9 qanun qəbul olunub, Azərbaycan Prezidenti tərəfindən 10 fərman, 20 bəyannamə, 1 saziş imzalanıb, Nazirlər Kabinetinin 17 qərarı, bir dövlət proqramı təsdiqlənib.

Qeyd olunub ki, idarələrarası əməkdaşlığın möhkəmləndirilməsi, o cümlədən insan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi çərçivəsində fəaliyyət göstərən 14 mərkəzi icra hakimiyyəti orqanının nümayəndələrindən ibarət İdarələrarası Komissiyanın fəaliyyəti də səmərəli olub.

İnsan alverinin doğurduğu təhlükələr barədə ictimaiyyətin məlumatlandırılması işində vətəndaş cəmiyyəti nümayəndələrinin və kütləvi informasiya vasitələrinin iştirakı ilə respublikanın bütün şəhər və rayonlarında 237 mədəni-kütləvi tədbir, o cümlədən çoxsaylı treninq və seminarlar keçirilib. Profilaktik iş, demək olar ki, əksər məktəbləri, lisey, kollec və uşaq evlərini əhatə edib.

Milli Fəaliyyət Planının həyata keçirilməsi üçün donorlar və göstərilən yardımın istifadə ediləcəyi sahələr də müəyyən olunub, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən 53 layihə maliyyələşdirilərək bu məqsədlər üçün 412 min manat vəsait xərclənib. İnsan alverinə qarşı mübarizədə xüsusilə fərqlənən 65 qeyri-hökumət təşkilatına Daxili İşlər Nazirliyi tərəfindən də 60 min manata yaxın maliyyə yardımları edilib. Ötən 5 ildə qeydə alınmış 755 insan alveri və məcburi əmək cinayəti üzrə 169 şəxs cinayət məsuliyyətinə cəlb olunub.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə beynəlxalq cinayətkar şəbəkənin ölkəmizdə fəaliyyət göstərməsinin qarşısı alınıb, 2 mütəşəkkil dəstə, 58 cinayətkar qrup zərərsizləşdirilib. Müəyyən edilmiş 356 qurbandan 312-si təhlükəsiz sığınacaqlara yerləşdirilib və hər birinə birdəfəlik müavinət, 280 qurbana isə Kömək Fondundan yardımlar verilib. Daha 124 nəfər işlə təmin edilib, 188 nəfər peşə kurslarına cəlb olunub və onların bir çoxu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Yardım Mərkəzlərində qeydiyyata götürülüb. Səhiyyə Nazirliyi tərəfindən 706 insan alveri qurbanına və potensial qurbana tibbi yardım göstərilib.

İnsan alverinin və məcburi əməyin qarşısının alınması sahəsində fəaliyyətin səmərəliliyi nüfuzlu beynəlxalq təşkilatların aidiyyatı sənədlərində də xüsusi vurğulanır. Belə ki, "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Konvensiyasının Tərəflər Komitəsinin, Avropa Şurasının müvafiq sahədə Ekspertlər Qrupu – GRETA-nın, ATƏT-in xüsusi nümayəndəsinin hesabatlarında Milli Fəaliyyət Planının icrası üzrə görülmüş işlər təqdirəlayiq hesab olunub, əldə edilmiş tərəqqi xüsusi vurğulanıb. Bu növ cinayətlərlə mübarizənin aidiyyatı dövlət orqanları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli şəkildə davam etdirilməsi məqsədilə 2019-2023-cü illəri əhatə edən yeni Milli Fəaliyyət Planının layihəsi hazırlanıb hökumətə təqdim edilib. İlkin variantı 67 tədbirdən ibarət olan həmin layihədə əsas hədəflər insan alveri ilə mübarizədə cinayət təqibinin, əməliyyat-axtarış fəaliyyətinin, maarifləndirmə işinin, qurbanların müdafiəsi və sosial reabilitasiyası üzrə tədbirlərin səmərəsini daha da artırmaq, beynəlxalq əməkdaşlığı inkişaf etdirməkdir.

Bundan əlavə, Planda xüsusi polis qurumunun maddi-texniki təminatının gücləndirilməsi, qurbanların və potensial qurbanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün lazımi şəraitin yaradılması, onlara xidmət göstərən sığınacaq və yardım mərkəzlərinin potensialının artırılması, insan alverinə qarşı mübarizə sahəsində tədqiqatların, elmi araşdırmaların aparılması və s. mühüm məsələlər əksini tapıb.

Bu konseptual sənədin icrasına bütövlükdə 36 dövlət orqanının, yerli icra hakimiyyətlərinin, aidiyyatı qeyri-hökumət təşkilatlarının cəlb edilməsi nəzərdə tutulur.

Sənəd müzakirələrdən sonra qəbul olunub.

# Dənizə bənzəyən adam...

***O, gözünü açandan dəniz görüb. Ən çətin illərdə, müharibənin qanlı-qadalı günlərində dəniz "saxlayıb" onları. Elə o tərəflərin ağsaqqallarından, ağbirçəklərindən kimi dindirsən, dənizin onlara atalıq, analıq etdiyini deyər. Dəniz onun keçmişi, bu günüdür. Bəlkə həmin səbəbdəndir ki, yaşının bu vədəsində də onsuz qala bilmir...***



Xoşbəxtdir, çünki xatırlayırlar. Haqqında yazmaq üçün çoxları ilə həmsöhbət oldum. Bu gün xidmətdə olan və ya təqaüdə çıxanların ilk sözü bu oldu: "O, hər zaman bizim rəisimizdir". Azərbaycanın hər yerində yetirmələri var. Bilirəm ki, harda qonaq olsa üzünə dost qapıları açılar. Bir sözlə, o, "köhnə kişilərdəndir".

Hələ qəddi-qaməti əyilməyib, rəis görkəmi, zabit duruşu da öz yerində. Telefonda: "Sizinlə görüşmək istəyirəm",-deyəndə: "Ürəyin nə vaxt istəyir, gəl",-dedi...

Adını çəkən kimi üzümə bütün qapılar açıldı. Hələ də əli işdən-gücdən soyumayıb. Özü demiş, o hələ də xidmətdədir.

Salam verib özümü təqdim edəndə gülümsədi. Əlini çiynimə qoyub dilləndi: "Açığı, "Mübariz keşikdə"dən qonaq gözləyirdim..."

Səksən ilin kövrəkliyini yaşayan, bəlkə də mənə baxıb gəncliyini xatırlayan istefada olan polis general-mayoru Rəsul Rəsulov kimi tanınmış bir insanla söhbətə necə başlayacağımı ürəyimdə götür-qoy etdiyimi sezmişdi.

"O illər çox çətin idi",-dedi: "Anam danışırdı ki, mən doğulanda gözəl bir yaz günüymüş 1939-cu il mayın 10-u. Astara şəhərində dəmirçi ailəsində dünyaya göz açmışam. Evimizin yanında hərbi şəhərcik vardı. Sinif yoldaşlarımın əksəriyyəti hərbçi uşaqlarıydı. Ataları haqqında elə ağızdolusu danışırdılar ki...

Hərbçi olmaq arzuma anam bir söz deməsə də görmüşdüm ki, örpəyinin ucu ilə gözlərini silib qardaşlarının divardan asılmış şəkillərinə baxır. Məndən böyük qardaşlarım da fikrimdən yayındırmaq istəmişdilər...

Onuncu sinifi bitirdikdən sonra ordu sıralarına çağırıldım. Biləcəridəki bölgü məntəqəsində polkovnik Nəsib Əliyev rus dilində sərbəst danışdığımı görüb təklif etdi ki, Daxili Qoşunlarda qalım, sonra hərbi məktəbə gedim. Manqa komandiri təyin edildim və mənə serjant rütbəsi verdilər. 1960-cı ildə SSRİ DİN-in Orcenikidze şəhərindəki üçillik hərbi məktəbinə qəbul olundum. Verilən bütün tapşırıqların öhdəsindən gəldiyimə görə mandat komissiyasını keçib Bakıda hərbi hissələrdən birinə siyasi məsələlər üzrə taqım komandiri təyin edildim. 1966-cı ildə Moskvada Hərbi Siyasi Akademiyanın Hüquq fakültəsinə qəbul olundum."

Deyir ki, 1974-cü ildə Mərkəzi Komitəyə işə dəvət olunub və iki ay davam edən yoxlamalardan sonra ulu öndər Heydər Əliyev onu qəbul edib. Gənc zabitə tapşırıqlarını verib, onu Azərbaycan KP MK-nin İnzibati orqanlar şöbəsində təlimatçı vəzifəsinə təyin edib. 1979-cu ildə Bakı Şəhər Daxili İşlər İdarəsinin rəisi vəzifəsinə göndərilib. 1987-ci ilin sentyabr ayından 1992-ci ilin may ayına qədər N.K.Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbinin, 1992-ci ildən 2005-ci ilədək DİN-in Polis Akademiyasının rəisi vəzifələrində xidmət edib...



Biz eşitdiklərimizi, gördüklərimizi qələmə aldıq. Ancaq onu ən yaxşı tanıyan, nəvəsi Nərgiz xanımın da fikirlərini bölüşməyi özümüzə borc bilirik.

N.Kərimi yazır: "Babam barəsində saatlarla danışa bilərəm. Hər insanın həyatında kimsə var - müəllim, dost, ata, ana...Babam mənim üçün bunların hamısıdır. O, hamıya, hər kəsə kömək etməyə çalışır. Dəniz boydadır babamın ürəyi. Ailə onun üçün müqəddəsdir. Uşaqlıqda babam bizi ova və balıq tutmağa da aparırdı. Hərçənd ona mane olurduq, amma o xoşbəxt idi, üzündə təbəssüm bizi danlayırdı.

Bilirəm ki, babam da məni hamıdan çox istəyir. Çünki anasının adını daşıyıram. O, dünyanın ən saf, qayğıkeş babasıdır"...

İşdir, əgər Rəsul Rəsulovla görüşmək istəsəniz, müəllimlər ocağına-Aviasiya Akademiyasına gedin. Təhlükəsizlik Xidmətinə rəhbərlik edir. Sizi böyük şövqlə özü yetişdirdiyi limonla çaya qonaq edəcək, səbrlə dinləyəcək, həvəslə danışacaq, müdrikcəsinə susacaq. Hə, sonda çətinliyinizin, sıxıntınızın olub-olmaması ilə də maraqlanacaq. Baba, ata, müəllim və general elə belə də olmalıdır...

***Və son olaraq, mayın 10-u həqiqətən əsl bayram günüdür...***

***Yazıya sərlövhə fikirləşəndə yenə də redaktorumuz köməyimə çatdı: "Deyirsiniz ki, dənizi çox sevir. Gəncliyinin, bütün ömrünün dostu, yadigarıdır, yəqin ona görə. Dost-dosta da tən olsun gərək, tən olmalıdır,"-dedi...***

***Ruslan Vəliyev,***
***polis leytenantı***

# ULU ÖNDƏRİN XATİRƏSİNƏ
## HƏSR OLUNMUŞ YARIŞ KEÇİRİLİB

**DİN İdman Cəmiyyətində ulu öndərin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş cüdo üzrə yeniyetmələr və gənclər arasında yarış keçirilib.**



Tədbirdə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova ulu öndər Heydər Əliyevin idmana və idmançılara dövlət səviyyəsində göstərdiyi qayğıdan bəhs edərək, bildirib ki, xalqımızın ümummilli lideri ölkəmizdə idmanın yüksək səviyyədə inkişaf etməsi üçün geniş imkanların yaradılmasında əlindən gələni əsirgəməyib. Bunun nəticəsidir ki, idmançılarımız yarışlarda yüksək nailiyyətlər qazanıb, bayrağımızı zirvələrdə dalğalandırıblar. Gənclərə dövlət qayğısı bu gün də davam və inkişaf etməkdədir. Ölkəmiz möhtəşəm idman tədbirlərinə evsahibliyi edir, dünyada idman ölkəsi kimi tanınır. Təbii ki, bu uğurların qazanılmasında daxili işlər orqanlarında xidmət edən idmançı əməkdaşların da payı var.



Daha sonra yarışlara start verilib.

İdman Cəmiyyətinin sədr müavini, polis polkovniki Elçin Rüstəmov qaydalar barədə məlumat verib.

Birincilikdə 4 yaş qrupunda müxtəlif çəki dərəcələri üzrə 100-ə yaxın idmançı öz gücünü sınayıb.

DİN İdman Cəmiyyəti Cüdo bölməsinin baş məşqçisi Zakir Kərimovun yetirmələri yüksək fiziki və texniki bacarıq nümayiş etdiriblər.

Yarışları Z.Kərimov, E.Bağırov, A.Həşimov və E.Məmmədov idarə ediblər.

*Zeyni Hüseynov,*
*polis serjantı*

# QƏHRƏMANLAR ÖMRÜ ESTAFETİ



**Ta qədimdən sülhsevər, tolerant dəyərlər yaradan xalq olmuşuq. Tarixin müxtəlif dönəmlərində başımıza az bəlalar gəlməyib. Hamısından alnıaçıq, üzüağ çıxmışıq. Heç kəsin elinə-obasına göz dikməmişik. Biz yalnız öz Vətənimizi qorumaqdan ötrü son damla qanınadək döyüşən xalqıq.**

İkinci Dünya müharibəsi Azərbaycan xalqının da tarixinə qəhrəmanlıq salnaməsi kimi düşüb. 1418 gün davam edən Böyük vətən müharibəsinin ilk günlərindən 40 min soydaşımız ordu sıralarına qoşulub. Xalqımız istər ön, istərsə də arxa cəbhədə döyüş və əmək rəşadətləri göstərib. Bakı şəhəri döyüşən ordunun cəbbəxanasına çevrilib. Qısa müddət ərzində ölkədə 87 qırıcı təyyarə və 1124 özünümüdafiə batalyonları təşkil olunub. Azərbaycanlılardan ibarət 416-cı, 271-ci, 77-ci və 223-cü milli diviziyalar Qafqaz dağlarından Berlinədək şanlı döyüş yolu keçib. Bütün çətinliklərə baxmayaraq, neftçilərimiz döyüşən ordunu yanacaqla təmin ediblər. Ordunun təyyarələri, tankları və avtomobilləri, demək olar ki, Bakı nefti ilə işləyib. Neft ehtiyatlarımız faşizm üzərində qələbə qazanılmasında əsas amillərdən biri olub. Azərbaycanın digər sərvətləri də cəbhə üçün sərf olunub.

Ümumilikdə 700 minə yaxın həmvətənimiz müharibədə iştirak edib, 300 mindən çoxu qələbə uğrunda həlak olub. Bu müharibədə 100-dən çox azərbaycanlı ən ali mükafata Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfər "Şərəf ordeni", 170 min nəfər digər orden və medallarla təltif olunub. Həzi Aslanov, Mehdi Hüseynzadə, Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, İsrafil Məmmədov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov və başqaları öz qəhrəmanlıqları ilə hərb tarixinə şərəfli sətirlər yazıblar.

Qürurverici haldır ki, həmin illərdə düşmənə qarşı savaşda iştirak edənlər arasında daxili işlər orqanlarının 797 təmsilçisi də vardı. Onlar cinayətkarlıqla mübarizədə olduğu kimi, faşizmə qarşı ölüm-dirim savaşında da örnək olublar. Bu qeyrət, fədakarlıq nümunəsi erməni faşizmi torpaqlarımıza-müqəddəs əmanətə əl uzadanda da bizim dadımıza çatdı, köməyimiz oldu.

Xalqımızın igid oğullarının qəhrəmanlığı qan yaddaşımızdadır və bizi daim Vətən qarşısında borcumuzu unutmamağa çağırır.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# ELAN

2019-cu il may ayının 13-də saat 8:00-da Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Ramil Usubov tərəfindən Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Yevlax, Mingəçevir, Kürdəmir və Zərdab şəhər, rayon polis orqanlarında vakant (74 ştat) olan post-patrul xidmətinin polis nəfəri (gecə xidməti) vəzifələrində xidmətə qəbulla bağlı DİN-in Daxili Qoşunlarının Bərdə rayonunda yerləşən hərbi hissəsində sıra baxışı keçiriləcək. Sıra baxışında yalnız qeyd olunan rayonlarda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, aşağıdakı şərtlərə cavab verən şəxslər iştirak edə bilərlər:

- ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törətdilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-93-64; (012)-590-92-54; (012)-590-93-45; (012)-590-92-37.**

***Azərbaycan Respublikasının***
***Daxili İşlər Nazirliyi***

# XÜLYALAR VƏ GERÇƏKLƏR

*Əvvəli ötən sayımızda.*

Yüksək tribunalardan şablon ifadələrlə, ikili standartlara qulluq edən ittihamlarla, saxta bəyanatlarla ölkəmizə dil uzadan, kükrəyən birilərinin arqumentlərini əllərindən alıb, onları "tərksilah" etdi desək, yəqin ki, yanılmarıq. Hakimiyyətin opponentlərini məyus etmiş, onları kədərə soxmuş bu uzaqgörənliyi, cəsarəti, dostlarımızı sevindirmiş məlum diplomatik məharəti və comərdliyi dünyanın çeşidli dövlət, siyasi xadimlərindən tutmuş ən mötəbər təşkilatların rəhbərlərinədək çoxu ədalət və insaf naminə yüksək qiymətləndirdi, təqdir etdilər. Ölkəmiz adına atılan bütün addımları hər zaman özlərinin dar və dayaz, primitiv düşüncə bucaqlarından, guya hansısa dövlətin, yaxud təşkilatın basqısının nəticəsi kimi "dəyərləndirməyə" öyrəşmiş antimilli radikal qüvvələr ölkə və beynəlxalq ictimaiyyət, dairələr tərəfindən birmənalı şəkildə müsbət qiymətləndirilən kütləvi əfv aksiyasını özlərinin gözə görünməyən, olmayan fəaliyyətlərinin nəticəsi kimi sırımağa, bu yöndə özlərinə təskinlik verməyə cəhd etsələr də fakt faktlığında qalır. Görünən dağa nə bələdçi? Yalnız xırda istisnalar olmaq şərti ilə...

Yəni dünənədək Avropanın, Amerikanın yüksək tribunalarından sevdikləri insan haqları mövzusunda moizə oxumağa, bu sahədə "rəhbər göstəriş"lərini verməyə öyrəncəli olmuş, şübhəsiz ki, erməni sevgisindən yoğrulmuş bəzi siyasətbazlar birdən-birə çarəsiz duruma, depressiyaya düşdülər. Bu adamlar əfvə dair son sərəncamın ruhuna və mahiyyətinə açıq-aşkar şəkildə hansısa mənfi fikir söyləməyə cürət etməsələr də məlum mövzunu manipulyasiya və spekulyasiya predmetinə çevirib bu dəfə "Amnesti İnternational" təşkilatının dili ilə ölkəmizin ünvanına çamur atmağa girişdilər. Guya ki, əfv olunanların çoxluğu Azərbaycanda məhbusların sayının artmasının göstəricisidir və s. Yaxın zamanlaradək bəzi avropalı siyasətbazlar, deputatlarla yerli, "müstəqil" hüquq müdafiəçilərinin hardasa alver, bazarlaşma predmetinə çevirdikləri, elə hər iki tərəfə külli miqdarda vəsait gətirən hansısa "siyasi məhbus" siyahılarının mövcudluğu şübhə altına alınıb, məhkum soydaşlarımızın və yaxınlarının heysiyyəti ilə oynamağa adət etmiş belələrinin xeyirxah obrazlarında maskaları üzlərindən yerə düşüb. Beləliəri cinayətkarlıqla mübarizə siyasətinin əlifbasını bilmədən, cinayətlərin artma və ya azalma tendensiyasının, açılmasının, baş vermə səbəblərini araşdırmadan primitiv düşüncə tərzləri ilə respublikamızı növbəti dəfə hansısa reytinq cədvəllərində ölkəmizi siyahının sonuna keçirmək istəklərilə cığal, qərəzli və islaholunmaz xarakterlərini növbəti dəfə ortaya qoymuş oldular.

Hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının ictimai asayişin etibarlı təmini istiqamətlərində apardıqları iş, kriminogen durumun nəzarətdə olması, ümumən cinayətlərin bir sıra ağır növlərinin ilbəil azalması, açılma göstəricisinin isə 80 faizdən yuxarı olması, əminamanlığın yüksək səviyyədə qorunması, cinayətkarlıqla mübarizədə əldə edilən müsbət nəticələr geniş ictimaiyyətə də, yerli və əcnəbi hüquq müdafiə qurumlarına, nüfuzlu beynəlxalq təşkilatlara da yaxşı məlumdur, çünki bu barədə aidiyyatı dövlət orqanları tərəfindən KİV-lər vasitəsilə mütəmadi olaraq məlumatlar yayımlanır. Şübhəsiz ki, cinayətkarlığı doğuran səbəblər, onların kriminoloji aspektləri, cinayətlərin artma-azalma tendensiyaları, həyata keçirilən qətiyyətli və prinsipial hüquq mühafizə siyasəti sayəsində açılma göstəricisinin əksər Qərb dövlətlərilə müqayisədə xeyli yüksək olması nəticəsində məsuliyyətə cəlb olunanların, deməli buna görə həm də məhkəmələr tərəfindən cəzalandırılanların sayı kimlərəsə çox görünə, cinayətə görə cəzanın labüdlüyü prinsipinin döndərmədən həyata keçirildiyi ölkələrdə bəzən belə tendensiyalar da özünü göstərə bilər və belə durum onları təbii ki, həmin xətdən, doğru yoldan çəkindirməli də deyil.

*Ardı var.*

*M.Orxan*

2019-cu ilin II yarısı üçün "Mübariz keşikdə"yə-
öz qəzetinizə abunə olmağa tələsin!

# ORUCUN MÖCÜZƏLƏRİ...

Allahın Quran-i Kərimdə biz qullarına verdiyi möcüzəvi mesajlar, günümüzdə elmi kəşflər ilə də isbatlanmaqdadır. Bu möcüzələrdən biri də oruc tutmanın insan orqanizminə olan faydaları ilə bağlıdır. Yapon hüceyrə bioloqu Yoshinori Ohsumi məhz bu sahədəki kəşfi ilə 2016-cı ildə Nobel mükafatına layiq görülmüşdür.

Ohsumi insan orqanizminin yenilənməsi və gümrahlaşması üçün orqanizmdəki vəzifəsini tamamlamış yaşlı hüceyrələrin məhv edilməsi gərəkdiyini, bunun isə yalnız ac qalmaqla mümkün olduğunu bildirmişdir. İnsan ac qaldıqda hüceyrələrdəki lizosomlar hərəkətə keçib yaşlı hüceyrələri yeməyə başlayır. Elmdə "autophagy" (yunanca auto - özünü, phagein - yemək) adı verilən proses ilə birlikdə vəzifəsini tamamlamış hüceyrələr onlardakı lizosomlar tərəfindən yeyilir. Onların isə yarayan parçacıqlarının enerjiyə, proteinlərə çevrilməsi sayəsində böyümə hormonları yaranır ki, bu da yeni hüceyrələrin əmələ gəlməsinə və inkişafına səbəb olur.

Oruc tutan insanın orqanizmindəki köhnə hüceyrələrin yeniləri ilə əvəz olunduğu bu möhtəşəm mexanizm, vücudu yeniləmək və gümrahlaşdırmaqla bərabər, xərçəng və diabet kimi xəstəliklərin qarşısının alınmasında da əvəzolunmaz rol oynayır.

*Natiq Abdullayev,*
*polis kapitanı*

# Mayın 1-dən 7-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 165 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 112 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 113 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 9 nəfər, borclu şəxs qismində axtarışda olan 36 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 12 nəfər ölmüş, 8 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 82 fakt müəyyən edilmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ VAKANT POST-PATRUL XİDMƏTİNİN POLİS NƏFƏRİ (GECƏ XİDMƏTİ) VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR
## MÜSABİQƏ ELAN EDİR

2019-cu il may ayının 21-də saat 8:00-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən Bakı Şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında və Sumqayıt, Abşeron şəhər, rayon polis idarələrində vakant Post-Patrul xidmətinin polis nəfəri (gecə xidməti) vəzifələrində xidmətə qəbulla bağlı Bakı şəhəri Nobel prospekti 69 ünvanında yerləşən DİN-in Əlahiddə Çevik Polis Alayında sıra baxışı keçiriləcək.

Sıra baxışında ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış, Bakı, Sumqayıt şəhərlərində, Abşeron rayonunda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən, ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışında iştiraka buraxılmayacaqlar.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-97-52; (012)-590-94-12; (012)-590-92-37; (012)-590-93-45.**

***Azərbaycan Respublikası***
***Daxili İşlər Nazirliyi***

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00